# Litvanın ölkəmizə göstərdiyi marağın ana xəttini Azərbaycanın son illərdə qazandığı böyük uğurlar təşkil edir

**"Azərbaycan-Litva iqtisadi əlaqələrinin zəngin tarixi var. Belə ki, hələ Sovet İttifaqı dövründən respublikalar arasında iqtisadi-mədəni əlaqələr yüksək səviyyədə olub. Bundan əlavə, Litva Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. 2007-ci ildə dövlətlərimiz arasında strateji əməkdaşlıq haqqında saziş imzalanıb. Hazırda Azərbaycan ilə Litva arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq üzrə 41 sənəd mövcuddur. Ötən il tərəflər arasında iqtisadi dövriyyə təqribən 33 milyon dollar həcmində olub. Əvvəlki rəqəmlər bizə onu deməyə əsas verir ki, tərəflər arasında iqtisadi əlaqələrin geniş potensialı var və bunun reallaşdırılması istiqamətində geniş imkanlar mövcuddur".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli söyləyib.

O qeyd edib ki, iqtisadi inkişaf baxımından Azərbaycanla Litva arasında oxşar cəhətlər çoxdur. Belə ki, ölkəmiz Cənubi Qafqaz, Litva da Baltikyanı dövlətlər arasında ən inkişaf etmiş iqtisadiyyata malikdir. Həmçinin ölkəmiz kimi, Litva da nəqliyyat-logistika infrastrukturunu şaxələndirib və ərazisində müasir tələblərə cavab verən yollar var. Bu gün iki ölkənin həm siyasi, həm də iqtisadi cəhətdən bir-birinə verəcəyi töhfələr çoxdur.

"Litva Avropa İttifaqının (Aİ) təhsil səviyyəsi üzrə ən inkişaf etmiş ölkələrindəndir. Burada ali təhsilli gənclərin sayı ölkə əhalisinin 56 faizindən çoxunu təşkil edir. Bu göstəriciyə görə, Litva Aİ-də lider mövqedədir. Litva, eyni zamanda ölkəmizdə Avropa İttifaqının 26 tvinniq layihəsi üzrə işlər görür. Hazırda 200-dən çox azərbaycanlı tələbə bu ölkədə təhsil alır.

Litva Baltik dənizindəki ən böyük limana - Klaypeda limanına malikdir ki, bu da gələcəkdə Azərbaycanın Orta dəhlizdə imkanlarını artıracaq, üstəlik, açıq dəniz limanlarına çıxmaq üçün geniş imkanlar yaradacaq. Həmçinin Litvada 7 Azad İqtisadi Zona (AİZ) fəaliyyət göstərir. Bu zonalar investisiya mühitinə və Aİ bazarlarına çıxış əldə etmək üçün çox əlverişli məkanlardır. Bu da bizim sahibkarlara, o cümlədən qeyri-neft sektorunda fəaliyyət göstərən biznes subyektlərinə Avropa bazarlarına çıxış üçün əlverişli şərait yarada bilər. Litvada hazırda digər Baltik ölkələrini birləşdirən geniş qaz şəbəkəsi də mövcuddur. Bu da Baltikyanı ölkələrə, həmçinin Şərqi və Şimali Avropaya qaz nəqli imkanlarımızı daha da genişləndirir. Bu gün ölkələrimiz arasında müxtəlif sahələr - energetika, "yaşıl enerji", nəqliyyatın təhlükəsizliyi, ətraf mühitin qorunması, gənclər, səhiyyə, pensiya islahatı, İT və mina əleyhinə layihələr üzrə əməkdaşlıq haqqında sazişlər imzalanıb. Bir sözlə, Litva işğaldan azad olunan bölgələrimizdə "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası əsasında yaşayış məntəqələrinin qurulmasına, İT sahəsində mütəxəssislərin yetişdirilməsinə, qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verə bilər", - deyə ekspert vurğulayıb.

Azərbaycanla Litvanın Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini söyləyən E.Kərimli bildirib ki, bu gün ölkəmizin Avropanın enerji təminatındakı əhəmiyyətli rolu artmaqdadır. Bu baxımdan Litva Azərbaycanın enerji resurslarının nəqli şəbəkəsinin daha da şaxələndirilməsində və inkişafında körpü rolunu oynayacaq. Litvanın ölkəmizə göstərdiyi marağın ana xəttini Azərbaycanın son illərdə qazandığı böyük uğurlar təşkil edir.

Təsadüfi deyil ki, dövlətimizin başçısının rəsmi səfəri zamanı əməkdaşlıq üçün konkret təkliflər irəli sürüldü. Litvanın Prezidenti Azərbaycanın imkanlarını qiymətləndirərkən ölkəmizin qlobal iqtisadiyyatda oynadığı rolun daha da artacağına diqqət çəkdi. O, Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycanın qlobal ticarətdə ən mühüm rollardan birini oynadığını və oynayacağını etiraf etdi. Üstəlik, Avropa İttifaqı Azərbaycanın əsas ticari tərəfdaşıdır, Litva da Aİ-nin üzvü kimi bu əməkdaşlıq münasibətlərinin bir parçası olaraq ölkəmizlə əlaqələrin gələcəyinə inamla baxır. Azərbaycan da öz növbəsində Litva ilə strateji münasibətlərin davamında, biznes əlaqələrinin möhkəmləndirilməsində maraqlıdır. Litva Prezidentinin öz ölkəsinin inkişaf göstəriciləri ilə bağlı təqdim etdiyi məlumatlar Vilnüsdə keçirilən biznes forumun işgüzar əlaqələrin qurulması üçün yaxşı fürsət və uğurlu təməl olduğunu söyləməyə əsas verir.

"Litva müasir rəqəmsal infrastruktura malikdir. Münasib tariflərə əsaslanan bu infrastruktur Avropa İttifaqında ən yaxşılar sırasındadır. Ölkənin digər üstünlükləri isə inkişaf etmiş şose və dəmir yolu xətləri, hava və dəniz nəqliyyatı sahələrindədir. Litva innovativ və yüksək texnoloji sektorlar üzərində də fəal çalışır. Həmçinin son on ildə elektrik enerjisi istehsalı sahəsində böyük işlər icra edilib, qaz və maye qaz terminalının tikintisi layihələri həyata keçirilib. Bu dövlətin hazırda enerji sahəsi günəş və külək enerji parklarından ibarətdir. Litva yaxın zamanlarda Baltik dənizində ilk dəfə olaraq külək enerji parkını yaradacaq.

Azərbaycan. - 2023.-25 may.- S. 5.